HAQQIN SÖZÜ - SÖZÜN HAQQI 31 DEKABR 2019-CU İL/ №024 (104)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2

NEPOTİZM BƏLASI

3

YAS TUTMAQ NƏDİR?

4

BERİKA ŞUKAKİDZE İLƏ MÜSAHİBƏ

6

QADIN OLMAQ

## GÜRCÜSTANIN MÜDAFİƏ NAZİRİ TÜRK HƏMKARI İLƏ GÖRÜŞÜB



Gürcüstanın müdafiə naziri İrakli Qaribaşvili Türkiyəyə rəsmi səfəri çərçivəsində Türkiyənin milli müdafiə naziri Hulusi Akarla görüşüb.

Gürcüstanın Müdafiə Nazirliyinin məlumatına əsasən, təkbətək görüşdə iki ölkə arasında müdafiə sahəsində əməkdaşlığın gücləndirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

İ.Qaribaşvili Gürcüstanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyinə görə Türkiyəyə təşəkkürünü bildirib və Gürcüstanın Müdafiə Qüvvələri sahəsində həyata keçirilən islahatlar barədə məlumat verib.

Tərəflər həmçinin Türkiyə və Gürcüstan arasında hərbi təhsil sahəsində əməkdaşlığın əhəmiyyətini və bu sahədə əlaqələrin daha da dərinləşdirilməsini müzakirə ediblər. Görüşdə müdafiə sahəsində Azərbaycan-Gürcüstan-Türkiyə əməkdaşlığına da xüsusi diqqət ayrılıb və bu əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Geniş tərkibdə davam etdirilən görüşdə Gürcüstan və Türkiyə arasında müdafiə sahəsində əməkdaşlıq məsələləri və gələcək planlar ətrafında fikir mübadiləsi aparılıb.

Görüş başa çatdıqdan sonra Gürcüstanın müdafiə naziri İ.Qaribaşvili və Türkiyənin milli müdafiə naziri H.Akar Türkiyə ilə Gürcüstan arasında hərbi maliyyə əməkdaşlığı ilə bağlı razılaşma imzalayıblar. Logistik dəstək haqqında razılaşma Türkiyə tərəfinin Gürcüstanın Müdafiə Nazirliyinə 100 milyon türk lirəsi dəyərində qrant ayrımasını nəzərdə tutur.

Rəsmi səfər çərçivəsində Gürcüstanın müdafiə naziri heyət üzvləri ilə birgə Türkiyə Cümhuriyyətinin qurucusu və ilk prezidenti Mustafa Kamal Atatürkün qəbrini zayarət edərək əklil qoyub və onun muzeyini nəzərdən keçiriblər.

## GİORGİ QAXARİA TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞÜB

Baş nazir Giorgi Qaxaria Türkiyənin xarici işlər naziri Mevlüt Çavuşoğlu ilə görüşüb.

Görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq münasibətləri müzakirə olunub.

G.Qaxaria Gürcüstanın Türkiyə ilə münasibətlərə böyük önəm verdiyini bildirib. O, Gürcüstanın bu münasibətlərin daha da dərinləşdirilməsində maraqlı olduğunu qeyd edib.

Tərəflər Cənub Qaz Dəhlizi, TANAP və Bakı-Tbilisi-Qars layihəsinin əhəmiyyəti barədə də müzakirə aparıblar.



## DONUZ QRİPİNDƏN İKİ NƏFƏR DÜNYASINI DƏYİŞİB

Gürcüstanda "donuz qripi" adlandırılan H1N1 virisundan iki nəfər ölüb. Bunu Gürcüstanın Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidze bildirib.

Onun sözlərinə görə, ölümə məhz H1N1 virusunun səbəb olması laborator yoxlamalarla təsdiq olunub.

A.Qamkrelidze qeyd edib ki, hazırda ölkədə A və B tipli qrip virusu yayılıb. Qripə yoluxma halları isə illik müqayisədə azdır.

Gürcüstanın Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin elmi rəhbəri Paata İmnadzenin sözlərinə əsasən isə, hazırda qriplə bağlı epidemiya təhlükəsi yoxdur, ölkədə 100 min nəfərə 190 qripə yoluxma halı qeydə alınıb.

"Bu göstərici illik müqayisədə 20 faiz azdır. 100 min nəfərə 450-500 yoluxma halı düşəndə, bu artıq epidemiya hesab olunur", - deyə P.İmnadze bildirib.




Qeyd edək ki, ötən ilin dekabr-yanvar aylarında Gürcüstanda H1N1 virusundan ölənlərin sayı 22 nəfər olub.



# NEPOTİZM BƏLASI

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

İstəyirəm bir neçə abzas nepotizmdən yazım ki, “donuz qripi”ndən təhlükəli olan bu bəlaya mübtəla olmayasız. O nepotizmdən ki, Birləşmiş Millətlər Təşkilatı onu korrupsiya hesab edir. O nepotizmdən ki, səmasında mədəniyyət günəşi zenitdə olan bir çox ölkələrdə ona görə ağır cəza tətbiq olunur. Misal üçün Norveçi göstərə bilərəm, 2004-cü ildə Norveç Qızıl Xaç Komitəsinin rəhbəri xəstəxana təmirinin sifarişini qardaşlarının rəhbərlik etdiyi şirkətə verdiyi üçün beş il yarım müddətinə həbs edilmişdir.

Nədir nepotizm? Bizim dildə buna *qohumbazlıq, tayfabazlıq* demək olar. Latın dilində isə *nepos bacıoğlu* mənasını verir ki, bu da katolik kilsəsi rəhbərlərinin bacı və qardaş oğulları ilə bağlıdır. Yazılana görə, orta əsrlərdə uşaqları olmayan Roma papaları rütbələrini və kilsə torpaqlarını öz bacıoğullarına verirlərmiş. Yəni sadə dillə desək, nepotizm bir işverənin işə götürdüyü zaman peşəkar keyfiyyətləri nəzərə almadan üstünlüyü öz qohumlarına, dostlarına, yaxınlarına verməsidir.

Rüşvətin bir növ qeyri-maddi forması olan bu vəba orta əsrlərin katolik kilsələrindən yayılaraq günümüzə kimi gəlib çıxmış, dövlət müəssisələrindən tutmuş, tikinti şirkətlərinə, təhsil müəssisələrinə qədər girə bilmişdir. İndi “adamın” olmasa işə düzəlmək universitet bitirməkdən çətindir. İndi işə götürərkən diplomuna yox, çevrənə baxırlar. İstəyir lap beş diplomun olsun, bir “adamın” olmasa işləmək üçün, pul qazanmaq üçün gərək ya oturub qohumlarından kiminsə rəhbər, direktor, rəis, employer olmasını gözləyəsən, ya da qarşına dolu qovluqlarla elə bürokratik sədd çəkəcəklər ki, onun yanında Çin səddini keçmək qonşun Qızyetər arvadın hasarını hopanmaq kimi asan olacaq.

Məsələn, mənim bir dostum yanacaqdoldurma məntəqəsində işə düzəlmək üçün o kağızın-bu kağızın dalıyca o qədər qaçmışdı ki, beş kilo arıqlamışdı, birtəhər şirkətə ərizəsini qəbul etsələr də, sonda benzin tökmək vəzifəsi üçün ondan diplom tələb etmişdilər. O da eləmə tənbəllik, dörd il oxuyub diplom alsa da yenə işsizdir. İndi də deyir ki, dörd il maşınlara benzin süzmək üçün oxumamışam. Dostum yaxşı bilir ki, diplom bəhanə idi, sadəcə olaraq, onun işə düzəlmək üçün “adamı” yoxdur.

Axı nəyə görə yanacaqdoldurma məntəqəsinin rəisi nəslində bir sürü işsiz cavan ola-ola yad uşağını işə götürsün? Qohum-qardaş, el-oba ona nə deyər? Onların üzünə necə baxar? Bir də ki, qohum-qardaş adamın sirrini açıb-danışmaz, diplomu olsa da, olmasa da, işi bacarsa da, bacarmasa da adamın ətini yesə də, sümüyünü atmaz. Yad nə bilirsən nəyin nəsidi, kimin kimidi, haralının haralısıdı, bir də gördün yerinə göz qoydu, satdı səni vergi müfəttişinə və sair, və ilaxır. Vəziyyət yanacaqdoldurma məntəqələrində bu cürdürsə, sən gör indi başqa sahələrdə necə ağlamalıdır.

Vallah, mən bu yazı ilə az qala Yer kürəsinin nüvəsinə qədər kök atmış ağacı qurutmaq zad niyyətində deyiləm. Bizim milli nepotizmimiz katolik kilsəsindən də qədimdir, qəbilələrin, tayfaların formalaşdığı zaman qədər qədimdir. Kökü dərinə işləmiş bu tikanlı qədim ağacı isə elə tayfalar özləri qurutmalıdırlar – həmrəy olmaqla. Həmrəylik gününüz və Yeni iliniz mübarək olsun!

# İQTİSADİYYAT NAZİRİ: BATUMİ LİMANININ ERMƏNİSTANA SATILMASI BARƏDƏ MƏLUMAT YALANDIR

“Gürcüstanın Batumi limanının Ermənistana satılması barədə yayılan məlumat həqiqətə uyğun deyil”. Bu barədə Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnava açıqlama verib.

O deyib ki, liman dövlətə məxsus deyil: “Buna görə də onun dövlət tərəfindən satışa çıxarılması mümkün deyil. Batumi limanını uzun müddətdir Qazaxıstan şirkəti idarə edir. Ermənistan tərəfinin limana hər hansı bir maraq göstərməsi barədə bizdə məlumat yoxdur. Belə bir şey olsaydı, biz bu barədə bilərdik”.

Qeyd edək ki, Ermənistanın “Jamanak” qəzeti ölkənin Gürcüstanın Batumi limanını almağa maraq göstərdiyi barədə yazıb. Nəşrdə qeyd olunub ki, Ermənistanın müxtəlif dairələri limanın alınması üçün vəsaitlərin toplanılmasını təşkil etməyə çalışır. Qəzet iddia edir ki, Batumi limanının əldə olunması



ilə yüklərin Ermənistana maneəsiz nəqlini təmin etmək mümkün olacaq.

*Mənbə: report.az*

# AZƏRBAYCANLA DOSTLUQ QRUPUNA YENİ RƏHBƏR TƏYİN OLUNUB



Parlamentin vitse-spikeri Kaxaber Kuçava Azərbaycanla dostluq qrupuna yeni rəhbər təyin olunub.

Bu ilin noyabrında parlament sədrinin müavini təyin olunan K.Kuçava 2017-ci ildən dostluq qrupunun üzvüdür. Qrupda Gürcüstan parlamentinin 62 deputatı təmsil olunur.

Xatırladaq ki, Gürcüstan parlamentində Azərbaycanla dostluq qrupunun rəhbəri, keçmiş vitse-spiker Zviad Dzidziqiuri olub. Z.Dzidziqiuri noyabrın 14-də proporsional seçki sisteminə keçidi nəzərdə tutan qanunun parlamentdə dəstəklənməməsindən sonra qanunverici orqanda tutduğu bütün vəzifələri tərk edib.

Z.Dzidziqiuri 2016-cı ilin noyabrından parlamentin sədr müavini, 2017-ci ilin martından isə Gürcüstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri olub.

# SAĞ SÜKANLI AVTOMOBİLLƏRİN TEXNİKİ BAXIŞ REQLAMENTİNƏ DƏYİŞİKLİK EDİLİB

Mövcud reqlamentə sağ sükanlı və sükanın yeri dəyişdirilmiş avtomobillərlə bağlı dəyişikliklər daxil edilib. “Palitra” radiosunun “Sakme” verilişində Avtomobillərin Müfəttişlik Orqanları Assosiasiyasının rəhbəri Vaja İordanaşvili bildirib ki, qeyd olunan tənzimləmələr 2020-ci ilin 1 yanvarından deyil, 1 aprelindən qüvvəyə minəcək.

Əgər sürücü 2020-ci ilin 1 aprelinə qədər sükanın yerini dəyişdirərsə, onun avtomobili sonrakı illərdə də adi rejimdə texniki baxışdan keçəcək. Qeyd olunan vaxtdan sonra sükanın yerini dəyişdirmək isə (həmçinin texniki baxışdan keçmək) qadağan olunacaq.

V.İordanaşvilinin sözlərinə görə, tənzimləmələr sağ sükanlı avtomobillərə də aiddir. 2020-ci ilin 1 aprelinə qədər qeydiyyatdan və texniki baxışdan keçmiş avtomobillər sonrakı illərdə də texniki baxışdan keçə biləcəklər. Ancaq 1 apreldən idxal edilmiş avtomobillər qeydiyyatdan (həmçinin texniki baxışdan) keçə bilməyəcəklər.

“Sağ sükanlı və sükanın yeri dəyişdirilmiş avtomobillər üçün tənzimləmə 2020-ci ilin 1 aprelindən qüvvəyə minəcək. Yəni sükanın yeri dəyişdirilmiş və ya 2020-ci ilin 1 aprelinə qədər dəyişdiriləcək nəqliyyat vasitələrinə icazə var və texniki baxışdan keçəcəklər. 2020-ci ilin 1 aprelindən artıq sükanın yerini dəyişdirmək qadağan olunur və həmin avtomobillər texniki baxışdan da keçə bilməyəcəklər.

Bundan əlavə, daha bir vacib dəyişiklik maye qazla çalışan avtomobillərə aiddir. Onlar üçün texniki baxışdan əvvəl qazla bağlı yoxlayışdan keçmək məcburidir”, - deyə V.İordanaşvili bildirib.

# PİYADALAR ÜÇÜN SANKSİYALAR CİDDİLƏŞİR

Hökumət yol hərəkəti və təhlükəsizlik baxımından piyadalara yanaşmanı sərtləşdirməyi planlaşdırır.

Bu haqda Daxili İşlər Nazirliyi tərəfindən hazırlanmış qanun layihəsində qeyd olunub və yaxın gələcəkdə bu təşəbbüsün irəli sürülməsi gözlənilir.

Layihəyə əsasən, piyada tərəfindən yol hərəkət qaydalarının pozulmasına görə nəzərdə tutulmuş cərimə 10 lari əvəzinə 20 lari olacaq.

“Bu hərəkətin bir il ərzində təkrarlanması halında cərimə 20 lari əvəzinə 40 lari, yuxarıda qeyd olunan hərəkətlər qəzaya səbəb olarsa, yaxud hərəkətə mane olarsa cərimə 50 lari əvəzinə 150 lari olacaq”, - qanun layihəsində qeyd olunub.

Qeyd edək ki, statistikaya əsasən, yol qəzaları sayının əksəriyyətində piyadaların vurulması qeydə alınıb. Cari ilin 3-cü rübünün göstəricilərinə görə, piyadaların vurulması ilə bağlı yol nəqliyyat hadisələrində 136 fakt qeydə alınıb. Nəticədə 18 nəfər dünyasını dəyişib, 347 nəfər xəsarət alıb.

*Mənbə: bpn.ge*

# AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ XİN BAŞÇILARININ ÜÇTƏRƏFLİ 8-Cİ GÖRÜŞÜ TBİLİSİDƏ KEÇİRİLİB




Dekabrın 23-ü Tbilisidə Gürcüstan, Azərbaycan və Türkiyənin xarici işlər nazirlərinin səkkizinci üçtərəfli görüşü keçirilib. Görüş çərçivəsində birgə bəyannamə və "2020-2022-ci illərin üçtərəfli əməkdaşlığının yeni fəaliyyət planı" imzalanıb.

Gürcüstanın xarici işlər naziri Davit Zalkalianinin qiymətləndirməsinə görə, qeyd olunan format regional əməkdaşlıqda hərtərəfli və uğurlu mexanizm deməkdir: "Bu format bizə müxtəlif istiqamətlərdə üçtərəfli əməkdaşlıq qrafikində olan məsələlərin geniş spektrini müzakirə etmək imkanı verir".

Onun sözlərinə əsasən, sayca səkkizinci görüşün baş tutması üçtərəfli formatda Gürcüstan-Azərbaycan-Türkiyənin möhkəm siyasi dialoqunun göstəricisidir.

"İkitərəfli səviyyədə Gürcüstanın Azərbaycan və Türkiyə ilə nümunəvi münasibətləri var. Bu iki ölkə Gürcüstanın ən böyük ticari tərəfdaşıdır. Bizi siyasət, ticari-iqtisadi, mədəni, nəqliyyat, energetika və bir çox sahədə strateji və çoxtərəfli əməkdaşlıq əlaqələndirir", - deyə D.Zalkaliani qeyd edib.

Ənənəyə uyğun olaraq görüş çərçivəsində birgə bəyannamə və "2020-2022-ci illərin üçtərəfli sektor əməkdaşlığının yeni fəaliyyət planı" imzalanıb. Üçtərəfli formatın vacib sənədi bütün sahələrdə üç ölkənin ümumi maraqlarını və planlarını, eləcə də üçtərəfli sektor əməkdaşlığı mexanizmlərini müəyyən edir.

Görüş zamanı birgə regional nəqliyyat və energetika layihələrinin müzakirəsinə diqqət ayrılıb. Trans-Xəzər boru kəməri layihəsinin həyata keçirilməsinin əhəmiyyəti və Xəzər regionundan Avropa istiqamətində enerji resurslarının daşınması məsələsi, həmçinin Avropanın enerji təhlükəsizliyinin təminatında Gürcüstan, Azərbaycan və Türkiyənin rolu qeyd olunub. Artıq uğurla həyata keçirilmiş Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum energetika layihələri diqqətə yetirilib. Eyni zamanda nazirlər bir daha Cənub energetika dəhlizinin tam həyata keçirilməsinə hazır olduqlarını bildiriblər. Eləcə də Trans-Anadolu Təbii qaz Boru Kəməri (TANAP) layihəsinin 2-ci mərhələsinin başa çatması əhəmiyyəti qeyd olunub.

"Azərbaycan-Gürcüstan-Türkiyənin strateji yerləşməsi və nəqliyyat potensialını nəzərə alaraq Avropa-Asiya əlaqələndirici nəqliyyat dəhlizinin maneəsiz fəaliyyəti üçün əməkdaşlığın dərinləşdirilməsinə böyük əhəmiyyət veririk. Bu baxımdan maksimum dərəcədə cəlbedici şərtlərin təmin olunmasına və tranzit potensialımızın beynəlxalq səviyyədə göstərilməsi üçün sıx əlaqələri davam etdirməyə hazır olduğumuzu bildirdik. Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsini qeyd etdik. Bu layihə yüklərin daşınması üçün vaxtı və xərcləri hiss olunacaq dərəcədə azaldır. Həmçinin Avropa və Asiyanı əlaqələndirən rəqabətli marşruta çevrilib", - nazir bildirib.

Görüşdə tarixi ipək yolunun bərpası məsələsində üç ölkənin xüsusi rolu və bunun ölkələr arasında əməkdaşlığı daha da dərinləşdirəcəyi və xalqlar arasındakı əlaqələri gücləndirəcəyi qeyd olunub. Belə ki, biznes dairələri arasında əməkdaşlığın fəallaşdırılması, biznes-forumların keçirilməsi, kiçik və orta biznesin fəallaşdırılması üçün vahid yanaşma qeydə alınıb.

Görüş zamanı regionda olan problemlərə və təhlükəsizlik məsələlərinə xüsusi diqqət ayrılıb.

"Mövcud olan münaqişələrin sülh, beynəlxalq stabillik və təhlükəsizliyə ciddi təhlükə yaratması, eləcə də iqtisadi inkişafa mane olması şübhəsizdir", - deyə D.Zalkaliani bildirib. Qeyd edilib ki, münaqişələr sülh yolu ilə, beynəlxalq hüquq prinsiplərinə uyğun və suverenliyi, ərazi bütövlüyünü və beynəlxalq şəkildə tanınmış sərhədlərin qorunması prinsiplərini nəzərə almaqla həll olunmalıdır.

"Yekun olaraq öz razılığımı bildirirəm ki, bu görüş Gürcüstan-Azərbaycan-Türkiyənin əlaqələrini möhkəmləndirməyə bir daha hazır olduqlarını göstərir", - mətbuat konfransının sonunda Gürcüstanın XİN başçısı bildirib.

Görüş çərçivəsində mediaya Azərbaycan və Türkiyənin xarici işlər nazirləri Elmar Məmmədyarov və Mevlüt Çavuşoğlu bəyanat verib, Gürcüstanda keçirilən görüşü və bu formatda üç ölkənin əməkdaşlığını müsbət qiymətləndiriblər.

***Mənbə: mfa.gov.ge***
***Gürcü dilindən tərcümə: A.Əliyeva***

# YAS TUTMAQ NƏDİR?



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Bu gün elə bir dövrdə yaşayırıq ki, adımız müsəlmandır, ancaq əməlimizin İslamla və müsəlmanlıqla heç bir əlaqəsi yoxdur. Əlaqəsi yoxdur, deyərkən bunu hər kəsə şamil etmirik, təbii ki. Özünü müsəlman adlandıran, ancaq İslamın qoyduğu qanunları qəbul etməyərək artıq müasirləşmək lazımdır deyən çox insan gördüm və tanıdım. Bu yazımda öncədən də bir neçə dəfə toxunduğum YAS TUTMAQ mövzusuna qayıtmaq istəyirəm.

Ölüm, insanın başına gələn ən acılı və ən ağrılı bir vəziyyət olduğu üçün ölənin yaxınları bundan böyük kədər duyarlar. Həyatın qanunu olaraq bu kədərlərini xaricə vurmaları da normaldır. Bunun üçün də insanların psixologiyasına yas tutmalı olduqları yerləşdirilməkdədir. Elə bu haqda çox yerdə soruşulub, ancaq əməl olunduğunu çox az yerdə gördüm. Soruşanlar üçün də bəzi araşdırmalarım oldu. Soruşanların verdikləri "dinimizdə yas tutmaq varmı, varsa nə şəkildə olmalıdır" sualıdır. Gəlin o zaman görək yas tutmaq nədir?

Sevdiyiniz birinin ölümünün ardından uzun bir müddət dünya zövqlərindən əlini-ətəyini çəkmək, onun üçün üzülmək deyə də tərif olunur. İlk başdan onu deyim ki, İslamda yas yoxdur. İslamiyyət pisləmək və yas tutmaq dini deyildir. Yas tutmağın caiz olduğunu göstərən heç bir ayə və hədis də yoxdur. Əksinə, qadağan edilmişdir. Yas tutmağın müsəlmanlıqla da heç bir əlaqəsi yoxdur.

Əbu Sələmənin qızı Həzrət Zeynəb nəql edir ki: Rəsulullahın xanımı Ümmü Həbibə anamızın atası ölüncə başsağlığı diləmək üçün yanına getdiyim zaman dedi ki: "Rəsulullahın, "Allaha və axirət gününə inanan bir qadının, ölən yaxını üçün üç gündən artıq yas tutması halal deyil" dediyini eşitdim." Cahş qızı Zeynəbin qardaşı şəhid olunca, o da eyni şeyləri söylədi (Buxari).

Dinimiz, nemətlərə şükr etməyi, müsibətlərə də səbr etməyi və susmağı əmr edir. Uşaq olunca, əqiqə qurbanı kəsməyi buyurur. Ölüncə, heyvan kəsməyi və ya başqa bir şey etməyi əmr etmir. Qışqırıb, çığırmağı, yas tutmağı qadağan edir (Əs-Siret-üş-Şamiyye).

Bu gün eyniylə İslamdan öncəki cəhalət zamanındakı kimi üzbaşını cıraraq ağlamaq, ölənin etdiklərini söyləmək, hətta özü bunları edə bilməyənlərin ağlamaq üçün də pulla ağlayanlar tutmaları dəb halına gəlmişdir. İşin maraqlı yönü də ordadır ki, hay-küylü ağlamayanlar qınanmaqdadır. Bundan başqa, ağlamaqla da elə bir abu-hava yaratmağa çalışırlar ki, guya kimin cənazəsində çox ağlansa o daha çox sevilirmiş. Bu isə əslində acınacaqlı bir haldır.

Biz hansısa bir məclisdə və ya kiminləsə bu mövzuda danışarkən "insan yaxınını itirib, onun üçün necə ağlamasın?" sualları ilə də çox qarşılaşırıq. Biz demirik ki, vəfat edən yaxının üçün ağlama, kədərlənmə. Bunun da müəyyən bir həddi var, o sərhədi qoruyaraq ağla və kədərlən. Çünki insanı yaradan və yaşadan Allahdır. Bir gün doğulan, bir gün də ölməyə məhkumdur. İnsan yaranarkən onun qədəri yazılır, ruzisi təyin olunur. İnsan da bunları nəzərə alaraq yaşamalıdır ki, sonu xüsran olmasın.

Hər hərəkəti və yaşamı ilə bizlərə nümunə olan Həzrət Peyğəmbər bu mövzuda da oğlu İbrahimin ölümündə nümunə olmuşdur. Belə ki, oğlu İbrahimin vəfatı əsnasında göz yaşı töküncə, səhabələri "necə olur, sən bunu bizə qadağan etməmişdinmi?" deyə soruşduqda, qadağan edilən şeyin şəfqət və ürək incəliyindən ağlamaq deyil, səsini yüksəltmək və döyünmək olduğunu bildirmişdir o iki cahan günəşi (Buxari, cenaiz 43; Ibn Macə, cenaiz 53; Müslim, fedail 62; əs-Subki, əl-Menhel VNI/278.).

Dindən xəbəri olmayıb sırf ağlını istifadə edənlər belə bunların heç bir faydasının olmadığını, öləni diriltməyəcəyini anlaya bilər.

Bu gün bəzi evlərdə yas əlaməti olaraq televizor qurulmaz, bəzi insanlar saqqal saxlayar, dırnaqlarını kəsməzlər. Ancaq bunun İslamla heç bir əlaqəsi yoxdur.

Onu da qeyd edək ki, həyat yoldaşı vəfat edən bir qadın üçün isə yas dörd ay on gündür. Bu müddət əsnasında bəzənməməsi, yeni və dəbdəbəli paltarlar geyinməməsi, özünə evlənmə təklifi edilməməsi, edilsə də qəbul etməməsi lazımdır.

# 2020-Cİ İLİN İMTAHANLARINDA PEDAQOQLARIN RƏQİBİ HÜQUQŞÜNASLAR VƏ BANK İŞÇİLƏRİ OLACAQ



***Payızda keçirilən imtahanda 6000-ə yaxın təcrübəçi müəllim fənn kompetensiyasını təsdiqləyə bilmədi. Təqribən o qədər pedaqoq da yay imtahanlarını verə bilmədi. Siyahıda imtahandan 1,2 və 0 bal qazanan pedaqoqlar da var. Məsələn, idman, rus dili və ibtidai sinif müəllimlərindən dörd nəfər qiymətləndirmədə 0 bal alıb. Eləcə də gürcü dili, ibtidai sinif və rus dili müəllimləri 1 bal toplayıblar. Payız imtahanında müəllimlər fənn kompetensiyasından əlavə ümumi bacarıqlar imtahanı da verdilər. İmtahanı verən müəllimlərə yanaşmada dövlət hansı güzəştlərə getdi və işləyən müəllimlər yaz imtahanına görə kiminlə mübarizə aparmalı olacaqlar? – Təfərrüatlarla bağlı "Batumelebi" Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəzin direktoru Berika Şukakidze ilə söhbət aparıb.***

**- Cənab Berika, 2019-cu il boyunca danışırdınız ki, yeni ildən təcrübəçi müəllimlər ilin sonuna qədər kompetensiyanı təsdiqləməzsə onlara məktəbdə qalmaq hüququ verilməyəcək. Bu mövqe niyə dəyişdi?**

- Ona görə ki, müəllimlərin müəyyən hissəsi 19-20-21 kredit balı toplayıb. Bu müəllimlərin imtahanı verə bilmədiklərinə görə kreditlərinin havada qalması ədalətsizlik olar. Buna görə onlara imkan yaratdıq ki, yazda bir daha imtahan versinlər və statuslarını qaldırsınlar, çatışmayan 1 ya 2 ballarını da qazansınlar.

2020-ci ilin yaz semestrində bu adamlara məktəbdə çalışmağa davam etmək üçün icazə veriləcək və onların yerinə vakansiya elan olunmayacaq.

**- 1 kredit neçə baldır? İmtahanların nəticələrinə görə, təqribən 6 minə yaxın pedaqoq var ki, 30 baldan az toplayıb.**

- Kimin 30-dan az balı var, düşünürəm ki, imtahanı vermiş sayılmır, amma semestrin ortasında müəllimi məktəbdən çıxarıb yenisini axtarmayacağıq ki?

**- 2019-cu ildə dövlət iki dəfə - yazda və dekabrda təcrübəçi müəllimlərə artıq imkan verdi ki, kompetensiyalarını təsdiq etsinlər. 2020-ci ilin yaz imtahanında da təsdiq edə bilməsələr nə olacaq?**

- İndi nə edək. Kiminsə 1 kredit balı, kiminsə 2 balı çatmır. Bu tədris ilini başa vursunlar. Eləcə də həmin 1 balı artırıb və baş müəllim olsalar daha ədalətli olar. Bunu da bacarmasalar, artıq bilmirəm nə olacaq.

Mən şagirdin qayğısına qalıram. Qorxuram ki, bu müəllimlər gedərsə, belə tez zamanda yeni müəllimləri necə tapacağıq? Kim deyirsə ki, kompetensiyanı təsdiqləyib, ancaq məktəbə girmir, onlar hamısı Tbilisidə və Vakedə işləmək istəyir və ona görə də regionlarda çatışmamazlıq var. Sonra ictimaiyyət məni qınayacaq ki, niyə müəllim axtarmırdın.

**- Məktəblərdə kadr çatışmamazlığının yarana biləcəyi haqda da əvvəl sizdən soruşmuşduq.**

- Bilirəm və bu çatışmamazlığı Milli Məktəblə aradan qaldırmağa çalışdıq, orada 2400 nəfər təhsil aldı. Bizi məktəbə buraxmırlar deyənlər gürcü və ingilis dili müəllimləridir. Baxın, onlardan neçəsi riyaziyyat, kimya, fizika müəllimidir. 450 müəllim çatışmamazlığı yaranarsa bu 3 müəllim yerləri dolduracaqmı? Bu uşaqların valideynlərinə nə cavab verim. Yeni müəllimləri belə tez məktəbə daxil edə bilməzsən.

Baxın, universitetlərdə təbiətşünaslıq fənlərinə bir nəfər də qeydiyyatdan keçməyib, müəllimi haradan gətirim? Batumi universiteti riyaziyyat üzrə indi 20 nəfər müəllim buraxır. Ancaq bu yetərli olacaqmı?

**- Milli Məktəbdə hansı kvalifikasiyalı insanları hazırladınız, ixtisasca pedaqoqdurlarmı?**

- 99 faiz bank əməkdaşları, hüquqi şirkət əməkdaşları, keçmiş kimya və konserv zavodlarının əməkdaşlarıdırlar. Bu adamları hazırlayan trenerlər dedilər ki, həyatımızda bu qədər açıq zehinli və motivasiyalı insanlar görməmişdik.

Hamı fənnə əsasən qeydiyyatdan keçmişdi, amma hələlik bu kadrlar kiçik və orta kontingentli məktəblər üçün lazımdır. İstəyirik fənn qrupu müəllimi olaraq yalnız riyaziyyat deyil, həm də riyaziyyat-tarix, kimya-biologiya və ya biologiya-riyaziyyat müəllimi olsun. Avropa ölkələrində olduğu kimi yeni tip müəllimlər hazırlanmalıdır. Məsələn, fizika 9 ya 12 saatdır, müəllimə nə qədər əmək haqqı verməlisən? 9 saata 2 min lari verməyəcəksən ki? Ona görə də fənn qrupu müəllimi olmalıdır. 15 nəfər şagirdi olan məktəblərdə fizika, biologiya, kimya və sair fənlər üçün ayrı-ayrı müəllimlərmi qəbul edək? Bunu həm fiziki, həm də maliyyə baxımından bacarmarıq.

**- Yaz imtahanlarından sonra nə dəyişəcək?**

- 14 min təcrübəçi müəllimimiz, 1900 Milli Məktəbdə hazırlanmış şəxs var. Bu adamlar yaz imtahanını verəcəklər və bir-biri ilə mübarizə aparacaqlar, sonra artıq vakansiya uğrunda yarışacaqlar. Bu ədalətli olacaq, çünki indi təcrübəçi müəllimləri imtahanı vermədiyinə görə məktəbdən çıxarsaq, təbii ki, onlar etiraz edəcəklər, çünki heç bu hazırlananlar da imtahan verməyiblər. Ona görə də bərabər şərtlər qoysaq hazırlanan şəxslər və təcrübəçilər yaz imtahanına çıxacaq və orada kompetensiyalarını təsdiq edəcəklər.

Gələn ildən kredit ballarının toplanması sistemi olmayacaq, ancaq nə toplayıblarsa onu itirməməlidirlər. Vahid prinsip müəllimin idarə qaydası olacaq, müəllimə kredit toplamaq-çıxmağa sərf etmək üçün deyil, sinifdə çalışmaq üçün daha çox vaxt verilməlidir.

Eləcə də məktəb bazasında peşəkar inkişafa keçəcəyik, çünki məktəb müəllimə nə lazım olduğunu müəyyən etməlidir, nə lazım olduğunu sonra mən buradan müəyyən etməməliyəm.

Əgər, deyək ki, Şarabidzelər məktəbində müəllimə tənqidi düşüncədə və ya təhlükəsiz məktəblə bağlı hazırlaşmaq lazımdırsa bizə deyilməlidir və onda dövlət bu hazırlığı təmin edəcək.

**- "Batumelebi"yə bildirdiyinizə görə, müəllimin yeni peşə tənzimləməsi qaydası 2020-ci ildən artıq başlamalıdır. Bunun həyata keçirilməsi də təxirə salınmayıb ki?**

2020-ci ildə birinci gündən bunun üzərində çalışmalara başlanılmalıdır. Çünki, düşünürük ki, 2020-ci il üçün statusu dəyişmək üçün imtahan vacib şərt olacaq. Ancaq bu yetərli olmayacaq. Ona görə də müəllimin fəaliyyətini xüsusi komissiya yoxlayacaq. Bu, resurs mərkəzin bazasında olacaq, Müəllimlər Evinin köməyi ilə həyata keçiriləcək ki, görək, bu adam imtahanı verir, amma bəlkə, ümumiyyətlə, dərsə buraxılmır. Onun fəaliyyətini onun portfolyosu təsdiq etməlidir ki, planı necə tərtib edir, dərsi necə keçir, müəllimin geniş miqyasda qiymətləndirilməsi olmalıdır və yalnız bundan sonra status dəyişməlidir.

**- Təcrübəçi müəllim birbaşa aparıcı statusu qazana bilərmi?**

- Xeyr. Aparıcı və mentor statusunu yalnız baş müəllim qazana bilər. Ona görə də müəllimi imtahana çıxarana kimi tədris resurslarını hazırlamalısan ki, nədən imtahan götürdüyümüzdən xəbəri olsun. Sonra bunun bazası əsasında "naec" imtahan keçirəcək və yüksək nəticə əldə edənlər statusunu dəyişəcək.

**Mənbə: batumelebi.ge**

Gürcü dilindən tərcümə: Aynurə ƏLİYEVA

## İCTİMAİ MƏKTƏBLƏRDƏ VİDEO KAMERALAR QURAŞDIRILACAQ



2020-ci ildə Tbilisi və böyük şəhərlərin ictimai məktəbləri mərhələli şəkildə video kameralarla təchiz olunacaq.

"2020-ci ildə məktəblərin video kameralarla təchiz edilməsini planlaşdırmışıq və bu, mərhələli şəkildə bütün məktəbləri əhatə edəcək", - Təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Ekaterina Dqebuadze bildirib.

Onun sözlərinə görə, nazirlik həmçinin ictimai məktəblərdə təhlükəsizliyin qorunması məqsədi ilə mandatur xidmətinin gücləndirilməsini və özəl məktəblərdə təhlükəsizliyə görə məsuliyyət daşıyan şəxslərin hazırlanmasını planlaşdırır.

"Mandatur xidməti özəl məktəblərə daxil olmayacaq. 223 özəl məktəbdə təhlükəsizliyə görə məsuliyyət daşıyan şəxslərin hazırlanmasını planlaşdırırıq. Bunun bir-iki aya baş verəcəyini demək çətindir, 2020-ci ildə bu adamları hazırlamağa başlayacağıq və çalışacağıq ilin sonuna qədər bütün özəl məktəbləri əhatə etsin. Təhülkəsizliyə cavabdeh olan şəxsin kimliyini özəl məktəb özü müəyyən edə bilər. Bu, pedaqoq və ya direktor müavini də ola bilər", - E.Dqebuadze bildirib.

## GÜRCÜSTANDA 2083 MƏKTƏBDƏN 107-SİNDƏ PSİXOLOQ VAR



Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin məlumatına əsasən, ölkə miqyasında ictimai məktəblərdə ştatda və ştatdankənar 107 psixoloq işləyir, onlardan 34-ü ştatda, 73-ü isə ştatdankənar fəaliyyət göstərir.

Tbilisi, Kvemo Kartli, Şida Kartli, İmereti, Samtsxe-Cavaxeti, Mtsxeta-Mtianeti, Acara və Sameqrelo-Zemo Svaneti bölgələrinin ictimai məktəblərinin müəyyən hissəsində psixoloqlar var.

Təhsil Nazirliyinin məlumatına görə, qüvvədə olan qanunvericiliyə əsasən, təhsil müəssisələrində ştatdankənar psixoloqların olması yalnız müvafiq müəssisələrin tələbindən dolayı müəssisədə şagirdlərin ehtiyacına əsasən nəzərə alınır.

## "TƏHSİLİN KEYFİYYƏTİNİN İNKİŞAFI" HAQQINDA QANUNA DƏYİŞİKLİK EDİLİB

Gürcüstanın "Təhsilin keyfiyyətinin inkişafı" haqqında qanununa dəyişiklik daxil edilib. Dəyişikliyi Gürcüstan prezidenti imzaladıqdan sonra qüvvəyə minib.

Dəyişikliyə əsasən, qanuna maddə əlavə olunub və həmin maddə aşağıdakını nəzərdə tutur:

"2011-2012-ci və 2014-2015-ci illərdə akkreditasiyadan keçmiş müəllimlərin hazırlığı üzrə bakalavr ali təhsil proqramları (ümumi təhsilin başlanğıc pilləsində müəllimlərin hazırlıq, bakalavr tədris proqramı) 2022-2023-cü tədris illərinin başlanmasına qədər akkreditasiyadan keçmiş hesab edilməlidir."

Dəyişikliyə görə, yuxarıdakı bənd 2 dekabr 2019-cu il tarixindən yaranan hüquqi münasibətlərə şamil ediləcəkdir.

## "AXTARAN" MÜƏLLİMİN MƏKTƏBDƏ İŞƏ BAŞLADIQDAN SONRA HANSI ÖHDƏLİKLƏRİ YARANIR?

"Axtaran" müəllimin məktəbdə işə başladıqdan sonra müəyyən öhdəlikləri yaranır və mütləq onları yerinə yetirməlidir.

Müəllim olmaq istəyən şəxs "axtaran" periodunu uğurla başa vurmazsa məktəblə bağladığı müqavilə bitir.

Məktəbə "axtaran" statusu ilə daxil olan şəxsin öhdəlikləri:

- **Təhsil müəssisəsi ilə əmək müqaviləsi bağladıqdan sonra 1 ay ərzində "axtaran" proqramını keçmək üçün ona uyğun vaxt və qrafik seçməlidir;**
- **2 il ərzində "axtaran" proqramını keçməlidir.**

Qeyd etmək lazımdır ki, "axtaran" müəllin ən azı milli tədris planı ilə nəzərdə tutulmuş fənn/fənlər qrupu istiqamətində bakalavr akademik dərəcəsi, yaxud idman peşə təhsilini təsdiq edən sənədi olan, və ya ümumi təhsil müəssisəsinin ehtiyacından dolayı ən azı 2 il ümumtəhsil müəssisəsində çalışmış olan müəllim olmaq istəyən şəxsdir.

Qanuna əsasən, müəllim olmaq istəyən şəxs həmçinin 2018-2019-cu tədris illərinin başlanğıcında ümumtəhsil müəssisəsində dərs deyən və müəllim peşəsinin inkişafı və karierada irəli getmək sxeminə qoşulmamış şəxs hesab olunur.



Belə ki, 2023-cü ilə qədər müəllim olmaq istəyən şəxs ən azı bakalavr və ya ona bərabər akademik dərəcəsi olan istənilən şəxs ola bilər və ondan milli tədris planına uyğun fənn/fənlər qrupunun akademik dərəcəsinə malik olmaq, hərbi/idman peşə təhsili olan şəxs olmaq tələb olunmur.

## MƏKTƏBLƏRDƏ YENİLİK – SİNİF JURNALLARI ELEKTRON OLACAQ



Gürcüstanın Təhsil, elm, mədəniyyət və idman nazirinin müavini İrine Abuladzenin bəyanatına əsasən, "Yeni məktəb modeli" çərçivəsində bir çox yeniliklər planlaşdırılır.

Yeniliklərdən biri sinif jurnalları ilə bağlıdır. Belə ki, məktəblərdə müəllimlər elektron jurnal dolduracaqlar və valideynlər övladlarının iştirakı haqqında elektron şəkildə məlumat ala biləcəklər.

"Gürcüstan hökumətinin internetə keçidlə bağlı strategiyası var. Bu baxımdan məktəblərdə vəziyyət müxtəlifdir, amma pilot proqramı olan və "Yeni məktəb modeli"nə qoşulmuş məktəblərin internet problemi yoxdur. Bütün siniflərdə internetin əlçatan olması üçün daxili "wifi"laşdırma işləri aparırıq. Bunun üçün 2019-cu ildə müvafiq büdcə müəyyən edilmişdir və daha çox məktəbin qoşulması üçün 2020-ci ildə də bir neçə milyon lari vəsait ayrılıb.

Müəllimlər tətbiq edəcəyimiz elektron jurnallardan istifadə edəcəklər. Bununla da valideynlər övladlarının iştirakı haqqında elektron məlumat ala biləcəklər. Bu, həmçinin bütün məktəblərin başlanğıc siniflərində UNICEF tərəfindən yaradılmış "Oyunla öyrənirik" texnoloji layihəsinin tətbiq edilməsini nəzərdə tutur. Layihə həqiqətən də yüksək düşünmə bacarıqlarının inkişafı üçün nəzərdə tutulmuşdur. Bunun tətbiqi uğurla davam edir, şagirdlərə imkan yaradır ki, tədris baxımından müxtəlif istiqamətlərdə özlərini inkişaf etdirsinlər və müəllim onlara bunda kömək etsin. Belə ki, texnologiyaların əsasının qoyulması tədris prosesində üstünlük olacaq. XXI əsrdir, şagirdlər texnologiyalara çox yaxındırlar. Biz onların texnologiyalardan düzgün istifadə etməsini təmin etməliyik ki, düzgün və səhv məlumatı bir-birindən ayıra bilsinlər və bu istiqamətdə yalnız şagirdlərə deyil, müəllimlərə də kömək lazımdır", - deyə İ.Abuladze bildirib.

"Yeni məktəb modeli" layihəsinə 2019-cu ildə başlanılıb və 2024-cü ilə qədər Gürcüstanın bütün məktəblərini əhatə edəcək. Layihə Gürcüstanın bütün bölgələrində 165 məktəbin 1-ci-4-cü siniflərində həyata keçirilir. Layihənin 34 414 şagird və 3096 müəllim benefisiarı var.

## TƏCRÜBƏÇİ MÜƏLLİMLƏRƏ HANSI GÜZƏŞTLƏR OLUNACAQ?

**Təcrübəçi (praktikos) müəllimlərin tədris ili başa çatana qədər məktəblə bağladığı müqavilə dayandırılmayacaq.**

Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin məlumatına əsasən, təcrübəçi müəllimlər bu tədris ilinin başa çatması ilə yanaşı yay məzuniyyətindən də yararlana biləcəklər.

*"2020-ci ilin 31 yanvarına qədər baş müəllim statusu qazana bilməyən təcrübəçi müəllimlərin özləri istəmədikləri halda məktəblə müqaviləsi dayandırılmayacaq. Təcrübəçi müəllimin 2019-2020-ci tədris ilini başa vurmaq və yay məzuniyyətindən yararlanmaq hüququ var. Məktəb yeni tədris ilinin başlanğıcında müəyyən edilmiş qaydaya əsasən saatları bölür, lazım olan halda müsabiqə elan edir. Bu halda, məktəb müsabiqə komissiyası yaradır və ümumi təhsil haqqında qanunla müəllimlər üçün müəyyən edilmiş məcburi tələbləri qane edən namizədləri müzakirə edir. Namizədin seçilməsi ilə bağlı qərarı məktəb qəbul edir. Məktəbin müsabiqə nəticələrindən dolayı təcrübəçi müəllimin müqaviləsinin davam etdirilməsi məsələsini qanunvericiliyə uyğun olaraq müzakirə etmək səlahiyyəti var"*, - nazirlik tərəfindən ictimai məktəblərə göndərilən məlumatda deyilir.



*Səhifəni hazırladı: Aynurə ƏLİYEVA*

# QADIN OLMAQ



Son zamanlar bizim gənc qızların sosial şəbəkə səhifələrində bu cür paylaşımlarını oxumaq olar: "Mən güclü qadınam", "Mən hər şeyi bacaracam", "Qadın olmaq güclü olmaqdır", "Qadına hörmət olunmalıdır" və sairə. Bu cür yazılarda görmək olar ki, qızlar öz qadın təbiətlərindən keçmək istəyib kişi təbiətinin güclü, mübariz xüsusiyyətlərini mənimsəməyə çalışırlar və hörmət tələb edirlər.

İnsan oğlu var olduğu gündən qadın həmişə zəriflik, gözəllik və sevgi simvolu olub, fəqət heç vaxt güc, aqressiya şəklində təsvir olunmayıb, çünki bunlar kişi təbiətidir. Bu gün bizim qızlar kişiyə xas xüsusiyyətləri mənimsəməyə çalışaraq həm təbiətin qanununa qarşı çıxırlar, həm də bizim qadına qarşı əsrlər boyu formalaşmış mentalitetlə mübarizə aparmağa çalışırlar. Bu mübarizədə qələbə qazanmaq üçün güclü görsənməyə çalışırlar. Ancaq təbiətin qanununa qarşı çıxan və öz təbiətindən imtina edən məğlubiyyətə məhkumdur.

Bəs niyə qadın olmaq qızlarda natamamlıq hissi yaradır? Qızlar öz qadın xüsusiyyətlərini rədd edib, özlərini güclu, mübariz göstərmək istəyərək öz natamamlıq komplekslərini kompensasiya etməyə çalışırlar. Niyə kişi təbiətini mənimsəməyə çalışırlar? Çünki həmişə hörmətli və öndə olan yalnız atalarını görürlər. Ailədə, cəmiyyətdə ikincidərəcəli olan analarına oxşamaq istəmirlər. Bu cəmiyyət qadına layiqincə dəyər verməyib. Və əgər bir gün əsrlərdir formalaşmış, böyük dərinliyə kök atmış mentalitet, qadınlara qarşı ikincidərəcəli yanaşma dəyişərsə, qızlar öz zərif qadın təbiətini rədd etmək istəməyəcəklər. Çünki hər varlıq yalnız öz təbiətində qalaraq xöşbəxt ola bilər.

Ötən həftə ictimai nəqliyyatda qarşımda oturan 50-55 yaş arası kişi yanında oturana belə dedi: "Bizim qadınlar çox axmaq və biliksizdirlər." Burada sual doğur, bizim qadınlar, analarımız, nənələrimiz bilikli olmaları üçün nə gördülər? Həyatları yalnız ailə ilə çərçivələndi. 15-16 yaşına kimi ata evində "qonaq oldular", sonra isə özlərini yetişdirməyə çatdırmamış ailə qurdular.

Orta yaşa dolub məktəb uşağı ilə bəy-gəlin masasına oturdunuz və evləndiyiniz o qız uşağının biliksizliyindən narazı qalmağa özünüzdə haqq da tapırsınız. Qadınlarınıza həmişə yuxarıdan aşağı baxdınız. Hiss etdirdiniz ki, onlar dünya görüşlü deyillər, formalaşmayıblar.

Ziyalımız da, cahilimiz də eyni baxış acısından yanaşdı qadına. Bizim cəmiyyət qadını şəxs görmək istəmədi. Onu yalnız nəsil artıran və övlad böyüdən gördünüz. Bu baxış bucağı hələ də aktuallığını qorumaqdadır.

Əri tərəfindən incidilən bir qadından, niyə ayrılmırsınız, deyə soruşanda kövrəlmiş bir səslə dedi: "Gecdir. O mənim uşağımın atasıdır". Ailəni dağıtmamaq üçün zalım ərin yanında ömür başa vurmaq, anasının xöşbəxt olmadığını görən uşaq böyütmək – bu düşüncəyə siz "ailə dəyərləri" adını qoydunuz. Sizdən asılı olduqlarını bildiyiniz üçün səbəbli-səbəbsiz üzlərinə bağırdınız. Sizə cavab qaytara bilməyəcəklərini bilərək özünüzü təsdiq etmək üçün əl qaldırdınız. Bu halı görən oğlan uşağı gələcəkdə öz xanımına qarşı atasının anasına olan rəftarını təkrarlayacaq, çünki başqa nümünəsi yoxdur. Bunu görən qız övladı isə anasına bənzəmək istəməyəcək. Qadınlarımız həyatı evlərinin pəncərələrindən izlədilər. Onlar nə gördülər?..

Bu gün həyata keçirilən layihələr, təlimlər bu problemin səthi düzəlişinə yönəlib, kökə isə toxunulmur. Hələ ki həllini tapmamış bu problemin səbəbini savadsızlıqla əlaqələndirirlər, mən isə ilk öncə insani sevginin, empati duyğunun az olmasında, sosial intelektin inkişaf etməməsində görürəm.

**Şənhəyat ELMANQIZI**
***İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Tibb fakültəsinin tələbəsi***

# MÜƏLLİMİN HAQQI, HAQQIN MÜƏLLİMİ

Məktəbdə oxuyanda həmişə müəllimlərimizin geyiminə baxardıq. Köhnəlmiş olduğunu görəndə isə gülərdik. Bir çox müəllimlərimiz vardı ki, onlar çox səliqəli və gözəl geyinərdi. Mən biologiya müəlliməmə, onun bir qadın duruşuna, geyiminə, əzminə vurulmuşdum. Onun dərsini həmişə yaxşı oxuyardım ki, o müəllimimin üzündəki gözəllik dərsini oxumadığıma görə dəyişib getməsin. İzləməkdən zövq alardım. Ancaq kasıb müəllimimizin isə köhnəlmiş paltarına gülər, həm də gözümüzdə paltarına görə onun dəyərini azaldardıq. Biz yalnız zahiri görərdik, həm də biz belə görüb öyrənmişik, insanlara onun zahiri duruşuna, imkanına, ad-sanına görə hörmət etməyi öyrənmişik.

Bu yaxınlarda tədbirlərin birində bir qocaman müəllim gördüm. İndi artıq böyümüşdüm deyə müəllimi şagird baxışı ilə deyil, onun zəhmətinin bəhrəsi kimi izləyirdim. Onun əynində illərin paltarı vardı – rəngi getmiş, yeni rəng almış, lap onun şagirdləri kimi, köhnələr məktəbi bitirib getmiş, yeniləri gəlmişdi, amma bu dəyişən trayektoriyada bir müəllim dəyişməmişdir. Görünür o da kasıb idi, amma qürurlu idi.

Bəli, onu zalda çox da diqqətlə izləmirdilər, onun şeirini isə az dinləyən vardı. Onun zahiri insanlarda diqqət oyatmamışdır. Onun kiçik çıxışı zamanı düşüncələrə qapıldım. Görəsən bunun günahı kimdə idi? Müəllimdə, yoxsa onun qədrini bilməyən bizdə? Mən müəllimə də haqq qazandırmaq istəyirəm. O, bəlkə başqa yerdə daha uğurlu və alicənab şəxs olardı, amma qayıdıb gəlmiş, öz kəndində müəllim kimi işləmiş, bütün illərin çətinliklərinə dözüb öz peşəsini yerinə yetirmişdir. Başqa yerdə həmişə yaxşı imkanlar olub. Kimlər bura qayıtmayıb və burdan çoxdan gedib onlar olduqları yerdə xoşbəxt və uğurlu şəxsə çevrilə biliblər. Hər şey üçün haqq tələb edirik, amma müəllimlər üçün isə yox. Biz yüksək təhsil tələb edirik, amma onun qarşılığını olduğundan az ödəyirik. Əgər biz bir ağaca onun ehtiyacı olandan az su töksək, o gec böyüyər və ya böyümədən ölə bilər. Müəllimə verilən haqq nədirsə o qədərini də bizə qaytarır. Ancaq biz qəhraman istəyirik, hər şeyi əvəzsiz edəcək çoxlu qəhraman.

Bəlkə bizimlə yanaşı elə müəllimin özü də günahkardır? Bəlkə müəllim də öz haqqını tələb etməmişdir və o da boyun əymişdir. O da təhsil verib cəhalətdən xilas etmiş olduğu insanlardan xilas gözləmişdir. Amma ortada bir reallıq var – əməyinin, zəhmətinin haqqını ala bilməyən tərəf və haqq istəyən müəllimdən təhsil tələb edən cəmiyyət. Əgər müəllim tələbkar şagird yetişdirsəydi bu gün həm müəllim, həm şagird firavan



yaşayardı. Kaş ki təhsili siyasi fiqurların oyununa qurban verməsəydiniz, biz də bu gün sizin halınıza acımasaydıq, əziz müəllimlər. Cəmiyyəti həm də özünüz üçün xilas edin!

**Samirə BAYRAMOVA**
İctimai fəal, hüquq müdafiəçisi

# ÖZ DİLİNİ MƏNİMSƏ Kİ, BAŞQA DİLİ DƏRK EDƏSƏN

Günümüzün problemlərindən danışaraq, yazaraq və müzakirə ederek problemlərin bir qismini həll edə bilərik. Bunlardan biri də dil məsələmizdir. Bu məsələyə toxunmamın ilkin səbəbi ana dilimizdə səlist danışa bilməyən insanlarla rastlaşmağım, hər gün onları müzakirə obyektinə çevirməyim oldu. Bəli, mən onları qınayır və sərt şəkildə narazılığımı bildirirəm. Cəmiyyətimizdə öz dilini bilməyənlər yetərincədir və bundan zərrə qədər utanmırlar da. Bu məsələ sərt şəkildə müzakirə olunmalıdır.

Başlayaq elə təhsil sistemindən. Statistik göstəricilərə əsasən, Gürcüstanda Azərbaycandilli məktəblərin sayı azalıb. Bunun başlıca səbəbi nədir?

Hər bir valideyn düşünür ki, övladı başqa dilli məktəbdə təhsil alarsa daha savadlı olacaq. Şagirdi başqa dilli məktəbə qoyur və ya yarımçıq ana dilində olan məktəbdən çıxararaq rus, gürcü sektorlarına göndərir. Nəticə olaraq şagird alayarımçıq olur, nə öz dilini, nə də başqa dili mənimsəyə bilir. Çünki insan öz dilini mənimsəməsə, öz ana dilinin qrammatikasını yaxşı bilməsə başqa dili tam öyrənə bilməz. Valideynlərə hər zaman səslənirəm, övladlarınıza öz ana dilində oxumaları üçün fürsət yaradın. Dəfələrlə başqa dildə təhsil alan tələbələrin ətraflarında ünsiyyətdə necə çətinlik çəkdiyini müzakirə etmişəm, elə ailədə də ailəsi ilə düşüncə ayrılığı üzündən mübahisədə olduğunu görmüşəm. Səbəb isə hər bir fərd hansı dildə təhsil alırsa o dili öyrənməklə qalmır, eyni zamanda o dilin daşıyıcısı olan xalqın mentalitetini, folklorunu da mənimsəyir. Beləliklə şagirdlərdə öz ana dilində danışmaq üçün söz bazası olmur. Bəzən xarici dildə danışan gəncləri görürəm, bunu sırf dəb üçün edirlər. Burada Bəxtiyar Vahabzadənin şeiri yada düşür:

“Ey öz doğma dilində danışmağı ar bilən,
Bunu iftixar bilən
Modalı ədəbazlar,
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar...”

Başqa dilləri öyrənib öz dilimizi unutmaqla gələcəyimizi görmək yanlış olar, ancaq nə qədər dil öyrənsək o qədər də insanıq prinsipi ilə paralel olaraq xarici dilləri də öyrənməyimiz yaxşı olar.



Bəli, gürcücə bilməliyik, rəsmi dövlət dilimizdir, ancaq orta təhsili Azərbaycan dilində almalıyıq. Ali təhsili onsuz da dövlət dilində alırıq.

Hər bir xalq üçün ana dili bir libasdır, biz ana dilində elə daşımalıyıq ki, başqa millətlər də bizlərə hörmət etsinlər. Ana dilimiz bizim formalaşmağımız, bədii yaradıcılığımız üçün ən vacib ünsürdür. Yazını Firudin bəy Köçərlinin sözləriylə bitirmək istəyirəm: “Millət hər şeyini, hətta torpağını itirə bilər, bununla birlikdə yenə yaşaya bilər, fəqət millət dilini itirərsə ondan geriyə bir şey qalmaz”.

**Laləzar Həsənova**
*İlia Dövlət Universitetinin Beynəlxalq əlaqələr fakültəsinin tələbəsi*

## BÖLGƏLƏRDƏ HƏYATA KEÇİRİLƏCƏK LAYİHƏLƏR ÜÇÜN BƏLƏDİYYƏLƏRƏ 2020-Cİ İLİN DÖVLƏT BÜDCƏSİNDƏN 250 MİLYON LARİ AYRILIB

Bölgələrdə həyata keçiriləcək layihələr üçün 2020-ci ilin dövlət büdcəsindən bələdiyyələrə 250 milyon lari ayrılıb.

Regional İnkişaf və İnfrastruktur Nazirliyinin məlumatına görə, həmin məbləğdən indiki mərhələdə 262 layihənin maliyyələşdirilməsi üçün bələdiyyələrə 128 milyon lari bölünüb.

Məlumata əsasən, ötən ilin analoji dövründə regional fonddan yalnız 90,5 milyon lari dəyərində 191 layihə maliyyələşdirilib.

“Gələn il fondun büdcəsi çərçivəsində ən çox layihə yol infrastrukturu istiqamətində həyata keçiriləcək. 365 kilometr yolun bərpası planlaşdırılıb və regional fonddan və yerli büdcədən 114 milyon laridən çox vəsait xərclənəcək.

Regionlarda Həyata Keçiriləcək Layihələr Fondundan 12 kənddə su təchizatı sistemlərinin yenilənməsi layihəsi maliyyələşdiriləcək, eləcə də müxtəlif bələdiyyələrdə uşaq bağçalarının, çoxmənzilli binaların, mədəni obyektlərin, idman infrastrukturunun, küçə işıqlandırmasının, kanalizasiya sistemlərinin bərpası həyata keçiriləcək. Regional fonddan bələdiyyələrdə maliyyələşdirilən layihələrin seçilməsi prosesi davam edir.

Cari ildə fonddan 2018-ci illə müqayisədə 393 layihə artıq, ümumilikdə 1201 layihə maliyyələşdirilib. Bundan 405 layihə səhiyyə infrastrukturu istiqamətində həyata keçirilib. Regional fonddan bu il ilk dəfə bələdiyyələrdə təbii fəlakətin aradan qaldırılması üçün kiçik işlər də həyata keçirilib”, - Regional İnkişaf və İnfrastruktur Nazirliyinin məlumatında deyilir.

## BOLNİSİDƏ ƏDLİYYƏ EVİNİN AÇILIŞI OLUB

Bolnisi rayonunda Ədliyyə Evinin açılışı olub. Açılış mərasimində Gürcüstanın baş nazirinin müavini, ədliyyə naziri Tea Tsulukiani, Kvemo Kartli qubernatoru Şota Rexviaşvili, parlamentdə Bolnisinin majoritar deputatı Qoqi Meşveliani, Bolnisi bələdiyyəsinin icra başçısı Davit Şerazadişvili, Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov və digər rəsmi şəxslər iştirak ediblər.



Yeni istifadəyə verilən Ədliyyə Evində vətəndaşlara dövlət və özəl sektor üzrə 450-dən çox xidmət göstəriləcək.

Qeyd edək ki, Bolnisi Ədliyyə Evi Kvemo Kartli bölgəsi üzrə üçüncü, bütün Gürcüstan üzrə isə 24-cü Ədliyyə Evi olub. Həmçinin Kvemo Kartlidə 10 İctimai Mərkəz fəaliyyət göstərir. Ədliyyə Evinin tikintisi Qardabanidə də planlaşdırılır.

## MARNEULİNİN KİRƏÇ-MUĞANLI KƏNDİ QAZLAŞDIRILIB

Marneuli bələdiyyəsinin Kirəç-Muğanlı kəndi təbii qazla təmin olunub. Kəndin qazlaşdırılması nəticəsində 327 ailə qazdan istifadə edə biləcək.

Qazpaylayıcı şəbəkənin tikintisini “SOCAR Georgia Gas” şirkəti həyata keçirib və tikinti çərçivəsində 25 km uzunluqda boru çəkilib.

Yeni tikilmiş şəbəkənin açılışı mərasimində Marneuli bələdiyyəsinin icra başçısı Zaur Dərğallı, “SOCAR Georgia Gas”ın direkotur Azər Məmmədov və digər rəsmi şəxslər iştirak ediblər.



Hazırda Kvemo Kartli bölgəsi miqyasında təbii qazdan istifadə edən 117 996 abonent var, onlardan 25 334 Marneulidədir.

## ƏN ÇOX MÜKÜFAT VƏ ƏLAVƏLƏR KVEMO KARTLİDƏ VERİLİB

Audit Xidmətinin büdcə monitorinqinin veb-səhifəsində yayımlanan göstəricilərə əsasən, dövlət müəssisələri tərəfindən 9 ay ərzində verilmiş mükafat-əlavələrin ümumi sayı 167,8 milyon lari təşkil edib. Ən çox mükafat-əlavələr Kvemo Kartli bölgəsində verilib.

**9 ay ərzində bölgələrdə verilmiş mükafat-əlavələrin göstəriciləri isə belədir:**

Abaşa, Zuqdidi, Martvili, Mestiya, Senaki, Çxorodzğu, Dzalencixi, Xobi və Poti bələdiyyələrində, ümumilikdə, 17,9 min lari mükafat və əlavələr verilib. Bu məbləğin 2,4 min larisi əlavələrə, 15,5 min larisi mükafatlara düşüb.

Bağdati, Vani, Zestafoni, Tercola, Samtredia, Saçxeri, Tkibuli, Tskaltubo, Çiatura, Xaraqauli, Xoni və Kutaisi bələdiyyələrində 15,3 min lari mükafat və əlavələr verilib, onun 14,4 min larisi mükafatlara, 950 larisi əlavələrə sərf olunub.

Bolnisi, Qardabani, Dmanisi, Tetricğaro, Marneuli, Tsalka və Rustavi bələdiyyələrində, ümumilikdə, 35,5 min laridən çox mükafat və əlavələr verilib. Onun 8,2 min laridən çoxu mükafatlara, 27,3 min larisi əlavələrə sərf edilib.

Lançxuti, Ozurgeti və Çoxatauri bələdiyyələrində 1,2 min lari mükafat və əlavələr verilib ki, məbləğ tamamilə əlavələrə sərf olunub. Bölgədə mükafat verilməyib.

Axmeta, Qurcaani, Dedoplisdzğaro, Telavi, Laqodexi, Saqareco, Siqnaxi və Qvareli bələdiyyələrində 1,2 min lari həcmində əlavələr verilib.

Duşeti, Tianeti, Mtsxeta və Kazbeki bələdiyyələrində 3 min laridən çox əlavələr verilib.

Ambrolauri, Lentexi, Oni və Tsaqeri bələdiyyələrində 2,2 min lari həcmində əlavələr verilib.

Adiqeni, Aspindza, Axaltsixe, Axalakalaki, Borjomi və Ninotsminda bələdiyyələrində mükafat və əlavələr verilməyib.

Qori, Kaspi, Kareli və Xaşuri bələdiyyələrində 675 lari əlavə verilib, mükafat verilməyib.

*Mənbə: bpn.ge*

## TEXNİKİ BAXIŞDAN KEÇMƏDİYİNƏ GÖRƏ CƏRİMƏLƏRİN SAYINA ƏSASƏN KVEMO KARTLİ ÜÇÜNCÜ YERDƏDİR

Cari ilin 3-cü rübündə texniki baxışdan keçməmiş nəqliyyat vasitələrinə 332 cərimə yazılıb. Bu haqda Daxili İşlər Nazirliyinin məlumatında qeyd edilib.

Məlumata əsasən, ən çox – 170 qayda pozuntusu Acarıstanda qeydə alınıb. Daha sonra, 135 qayda pozuntusu ilə İmereti, 3-cü yerdə isə 13 pozuntu faktı ilə Kvemo Kartli gəlir.

Həmçinin texniki baxışdan keçmədiyinə görə Kaxetidə 11, Tbilisidə 2, Mtsxeta-Mtianetidə 1 cərimə yazılıb.

Cari ilin 2-ci rübündə periodik texniki baxışdan keçməmiş 274, 1-ci rübdə isə 1 646 nəqliyyat vasitəsinə cərimə yazılıb.

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 31 DEKABR 2019-CU İL/ №024 (104)

# Yeni YOL

yeni_yol@mail.ru İCTİMAİ QƏZET ეენი იოლი საზოგადოებრივი გაზეთი qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## "GÜRCÜSTAN" QƏZETİNİN BAŞ REDAKTORU İSLAM ƏLİYEV DÜNYASINI DƏYİŞİB



"Gürcüstan" qəzetinin baş redaktoru İslam Əliyev dekabrın 21-i uzun sürən xəstəlikdən sonra 72 yaşında dünyasını dəyişib.

İslam Hacı oğlu Əliyev 1947-ci il iyunun 1-də Marneuli rayonunun Ambarovka kəndində anadan olub. O, 1965-ci ildə A.S.Puşkin adına Tibilisi Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə qəbul olub və 1970-ci ildə institutu fərqlənmə diplomu ilə bitirib.

Sonra o, "Sovet Gürcüstanı" respublika qəzetinə işə qəbul edilib. İlk öncə korrektor, sonra baş redaktor, kiçik ədəbi işçi, məktublar və kütləvi işlər şöbəsinin müdiri, daha sonra təbliğat-təşviqat, partiya həyatı şöbəsinin müdiri və məsul katib vəzifələrində çalışıb. İ.Əliyev 1990-cı ildə "Sovet Gürcüstanı" qəzetinin redaktor müavini təyin edilib. O, həmin vəzifədə çalışmaqla, həm də 2004-cü ildən 2014-cü ilədək "AzərTac"ın Gürcüstan müxbiri vəzifəsində çalışıb. 2015-ci ildə İ.Əliyev "Gürcüstan" qəzetinin redaktoru vəzifəsinə təyin olunub.

Gürcüstan jurnalistikasında uzunmüddətli uğurlu fəaliyyət göstərdiyinə görə 2015-ci ildə İslam Əliyev "Gürcustanın Əməkdar Jurnalisti" adına layiq görülüb.

O, doğma kəndində dəfn edilib.

## GÜRCÜSTANDA İSTİRAHƏT GÜNLƏRİNİN SAYI ARTA BİLƏR



Əmək Məcəlləsinə daxil ediləcək dəyişikliklərlə bağlı parlamentə iki qanun layihəsi təqdim olunub. Qanun layihələrinə əsasən, ölkədə istirahət günlərinin sayı artacaq.

Sənəddə 1 may tarixi istirahət günü kimi göstərilir. Layihəyə əsasən, 1 may Beynəlxalq Əmək Günü kimi qeyd edilir və Avropa ölkələrinin əksəriyyətində istirahət günüdür.

Layihə müəlliflərinin qiymətləndirməsinə görə, qeyd olunan qərar dövlət tərəfindən əməyə və zəhmətkeş insanlara hörmət göstəricisi olacaq.

İkinci qanun layihəsinə əsasən isə, Əmək Məcəlləsinin 20-ci maddəsinin birinci bəndi ilə müəyyən edilmiş istirahət günlərinin siyahısından 8 Mart – Beynəlxalq Qadınlar Günü çıxarılacaq və 14 may – "Vətən günü" əlavə olunacaq.

14 mayın istirahət günü elan edilməsindən əlavə, layihə çar Tamaranın anım günü – 14 may tarixinin milli bayram günü – "Vətən günü" elan olunmasını nəzərdə tutur.

"Tamarın anım günü – 14 may milli bayram – "Vətən günü" olaraq elan olunmalıdır və bütün böyük şəhərlərdə və bələdiyyə mərkəzlərində, eləcə də xarici ölkədə fəaliyyət göstərən diplomatik nümayəndəliklərdə geniş miqyasda qeyd olunmalıdır. Bu gün əhəmiyyətli dərəcədə siyasi yük daşıyacaq ki, müasir gürcü dövlətinin gücləndirilməsinə və qələbələrə əsas olacaq. Hər il bu günün qeyd olunma mərkəzi dəyişməlidir və konkret bir bələdiyyəyə aksent edilməlidir ki, orada "Vətən günü" əhali və hakimiyyət tərəfindən xüsusi olaraq qeyd olunacaq", - layihənin izahatında deyilir.

*Mənbə: tv4.ge*

## ABŞ-IN GÜRCÜSTANDAKI YENİ SƏFİRİ TƏSDİQLƏNİB



ABŞ Senatı Kelli Deqnanın (Kelly C. Degnan) Gürcüstana səfir təyin olunmasını dəstəkləyib.

Bu barədə Senatın rəsmi saytında bildirilib.

K.Deqnan hazırda ABŞ Hərbi Dəniz Qüvvələri rəhbərliyinin Avropa və Afrika üzrə siyasi məsləhətçisidir.

Səfir vəzifəsinə namizədin diplomatik missiyalarda 25 illik iş təcrübəsi var. K.Deqnan ABŞ-ın Türkiyədəki səfirliyində siyasi müşavirin müavini vəzifəsində də çalışıb. O, italyan, fransız, türk və digər xarici dilləri bilir.

Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp ölkənin Gürcüstandakı səfir postuna K.Deqnanın namizədliyini bu ilin sentyabrında irəli sürüb.

ABŞ-ın Gürcüstandakı səfir postu 2018-ci ilin martından vakant qalıb. 2015-2018-ci illərdə bu vəzifəni Yan Kelli tutub.

*Mənbə: report.az*

## RUSİYADAN ALINAN TOP-5 MƏHSUL



2019-cu ilin yanvar-noyabr aylarında Gürcüstanda xarici ticarət dövriyyəsi (elan edilməmiş ticarət istisna olmaqla) 11 504,1 milyon ABŞ dolları təşkil edib ki, bu da ötən ilin göstəricisindən 1,4 faiz çoxdur. Buradan 3 381,4 milyon ABŞ dolları (11,7 faiz çox) ixrac, 8 122,6 milyon ABŞ dolları (2,3 faiz az) isə idxal təşkil edib.

Qeyd etmək lazımdır ki, hesabat dövründə 10 ən böyük idxal tərəfdaşı ölkəsinin payı Gürcüstanın ümumi idxalının 65,8 faizini təşkil etmişdir. Rusiya 868,0 milyon ABŞ dolları həcmində idxal ilə ilk 10 ölkə siyahısında 2-ci yeri tutur.

**Rusiyadan alınan məhsullar:**

- Neft və neft məhsulları - 180 189 000 ABŞ dolları.
- Buğda və meslin - 79 738 700 ABŞ dolları.
- Neft qazları - 30 608 500 ABŞ dolları.
- Günəbaxan yağı - 29 625 000 ABŞ dolları.
- Kömür koksu və yarım koks - 29 181 000 ABŞ dolları.

*Mənbə: bpn.ge*

## MAYE QAZIN QİYMƏTİ BAHALAŞIB



Maye qazın qiyməti 30 tetri bahalaşıb. Bahalaşmaya səbəb daxili bazarda tələbatın kəskin artmasıdır.

Ölkədə bu növ yanacaqdan istifadə edən avtomobillərin sayı 7 mindən çoxdur. Üç il öncə isə bu cür nəqliyyat vasitələrinin sayı minə yaxın olub.

Bu ilin yayında maye qazın bir kubmetrinin qiyməti 90 tetri təşkil edirdisə, hazırda 1 lari 20 tetridir.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.